QƏLƏBƏ

İctimai-siyasi qəzet

24 iyul 2018-ci il, çərşənbə axşamı, № 19-20 (8.501)
Qəzet 1924-cü ildən çıxır

TƏSİSÇİ: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Qarşıda duran bütün vəzifələr uğurla icra edilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır.

Prezident İlham Əliyev giriş nitqində qeyd etmişdir ki, ilin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir.

Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq.

Seçkilərdən əvvəl keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş "exit-poll"lar rəsmi nəticələrlə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilərdə Azərbaycan xalqının iradəsi tam öz əksini tapmışdır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilmişdir və Azərbaycan bütün dünyaya bir daha göstərmişdir ki, müasir, demokratik ölkədir. O ölkədir ki, burada bütün azadlıqlar təmin edilir.

Azərbaycan isə ordu quruculuğu istiqamətində inamla irəliləyir. Biz hərbi paradda potensialımızın bir hissəsini göstərmişik - həm say baxımından, həm silahların növü baxımından.

Bizim böyük maliyyə ehtiyatlarımız imkan verir ki, istənilən hərbi texnikanı alaq və hazır vəziyyətə gətirək. Bu il büdcəmizə edilən dəyişikliklər, dürüstləşmə, eyni zamanda, ordu xərclərinin artırılmasına istiqamətləndirilib və gələn il də bizim hərbi xərclərimiz çox yüksək səviyyədə olacaqdır.

Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik.

Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Kənd təsərrüfatı 7,6 faiz artmışdır. Xüsusilə bitkiçiliyi qeyd etmək istərdim. Bitkiçilik 14 faizdən çox artmışdır. 67 min yeni iş yeri yaradılmışdır. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulmuşdur. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artmışdır. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Xarici ticarət dövriyyəsi 35 faiz artmışdır. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artmışdır. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır, əlbəttə ki, ilin sonuna qədər daha da artacaq. Bu, çox böyük rəqəmdir, bir daha onu göstərir ki, makroiqtisadi sabitlik tam təmin edilir.

Bir sözlə, əsas iqtisadi göstəricilərimiz bundan ibarətdir. Əlavə edək ki, ilin əvvəlindən valyuta ehtiyatlarımız da artıb və bu gün ölkəmizin valyuta ehtiyatları 44,3 milyard dollar təşkil edir.

Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş vermişdir. May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilmişdir. Bu, çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir. Ələt limanı indi uğurla fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün bu limanın çox böyük əhəmiyyəti var.

Cənub Qaz Dəhlizinin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihəsi. Dördüncü layihə - TAP qrafik üzrə icra edilir.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan yığıncaqda çıxışlar olmuş və Prezident İlham Əliyev yekun nitqi söyləmişdir.

Yarımilliyin yekunları müzakirə edildi

Salyan rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında möhtərəm Prezidentimizin nitqindən irəli gələn vəzifələrlə əlaqədar Salyan rayon İcra hakimiyyətinin 2018-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov Salyan rayonunun 2018-ci ilin altı ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı geniş məruzə ilə çıxış etmişdir. Yığıncaqda məruzə ətrafında çıxışlar olmuşdur. Rayon kənd təsərrüfatı idarəsinin rəisi Tariyel Ağamalıyev, maliyyə idarəsinin rəisi Samir Rzayev, "MKT İstehsalat Kommersiya" MMC-in Salyan filialının direktoru Bahəddin Leysanov, elektrik şəbəkəsinin rəisi Nurəddin Nəcəfov, Suvarma Sistemləri idarəsinin rəisi Tahir Yusifov çıxış etmişlər.

Məruzə və çıxışlarda qeyd edilmişdir ki, cənab Prezident İlham Əliyevin Salyana davamlı diqqəti və qayğısı sayəsində genişmiqyaslı quruculuq-abadlıq işləri icra edilir. İlin birinci yarısında şəhərin 38 kommunal binasında əsaslı təmir işləri görülmüş, Xəlil Rza Ulutürk küçəsi 14, Yusif Qasımov 4, 6, Cəfər Cabbarlı küçəsi 14, Ağaxan Ağabəyli küçəsi 1A saylı binaların dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Şəhərin Elçin İmanov, Aşıq Pənah, Hacı Zeynalabdin Tağıyev və Tale Davudzadə küçələrində abadlıq işləri davam etdirilmişdir.Bundan başqa şəhərin Qüdrət Səmədov küçəsinə asfalt-beton örtük vurulmuşdur.

Rayonda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, Ələt-Astara magistral avtomobil yolunda, həmçinin Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda və 45 km uzunluğunda Salyan-Neftçala avtomobil yolunda tikinti işləri başa çatdırılmış, 13,1 km uzunluğunda Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu kəndini birləşdirən kəndarası avtomobil yolunun və Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 km hissəsinin tikinti işləri davam etdirilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində rayonun 5 kəndində 30,7 km-dən çox kənddaxili yollara çınqıl səpilmişdir.

Rayonun Xıdırlı kəndi ərazisində Zeytun və Meyvə emalı zavodlarının tikintisi sürətlə davam edir. Qeyd edilən zavodların tikintisi məhsul istehsalının artımı ilə yanaşı yüzdən artıq yeni iş yerlərinin yaranmasına səbəb olacaqdır.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin 6 ayında 510-u daimi olmaqla 2856 yeni iş yeri yaradılmışdır.

Azərbaycan Respublikası Regionlarının (2014-2018-ci illər) Sosial İqtisadi İnkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar aqrar sahədə rayonda bir sıra tədbirlər həyata keçirilmişdir.

2018-ci ilin məhsulu üçün 16813 hektar sahədə taxıl, bundan 8348 hektar buğda, 8465 hektar arpa, 4039 hektar sahədə təzə yonca, 660 hektar sahədə dən üçün qarğıdalı, 420 hektar sahədə kartof, 1241 hektar sahədə tərəvəz, 822 hektar sahədə isə bostan məhsullarının əkini aparılmışdır.

Qeyd etmək lazımdır ki, artıq aparılmış əkin sahələrində məhsul yığımına başlanılmışdır. 01 iyul 2018-ci il tarixə 16813 hektar taxıl sahəsindən 41 min ton məhsul toplanmışdır ki, hər hektardan məhsuldarlıq 31,7 sentner olmuşdur.

8348 hektar buğda sahəsindən 17,5 min ton, 8465 hektar arpa sahəsindən isə 17,5 min ton məhsul toplanmışdır.

Rayon üzrə pambıq əkini nəzərdə tutulan 7055,0 hektar torpaq sahəsində əkin aparılmış və becərmə işlərinə başlanılmışdır.

Pambıq əkini aparılmış sahələrdə 5995 nəfər işlə təmin olunmuşdur.

Əhalinin həyatında mühüm əhəmiyyətə malik olan elektrik, təbii qaz, içməli su təminatı sahəsində müəyyən işlər görülmüşdür.

"Salyan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2017-ci il tarixli, 3175 №-li Sərəncamına uyğun olaraq Salyan şəhərində su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması işləri davam etdirilmiş, yeni çəkilmiş su xətlərindən ayırmalar verilmiş, 727 mənzilə su sayğacı quraşdırılmışdır.

Hazırda şəhərdə II mərhələ üzrə bu günə qədər su xətti mövcud olmayan Yusif Qasımov küçəsinə əlavə su xətti çəkilir. Şəhərin 28 May, Hacı Zeynalabdin Tağıyev və digər küçələrində ümumilikdə 4000 p/m müxtəlif diametrli su xətlərinin çəkilişləri davam etdirilir.

Hesabat yığıncağında digər məsələlər də müzakirə olunmuşdur.

Vətəndaş müraciətləri müsbət həll edilir

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan genişmiqyaslı iqtisadi və siyasi islahatları dəstəkləməklə yanaşı, insanlar gündəngünə abadlaşan respublikamızın, o cümlədən rayonumuzun daha da çiçəklənməsi üçün yeni təşəbbüslərlə çıxış edir, arzu və rəylərini bildirir, onları narahat edən problemlərin həlli üçün təkliflər verirlər. Bu məsələlərə digər yerlərdə olduğu kimi, Salyanda da ölkə başçısının tapşırıqlarına uyğun yanaşılır və icra edilir. Adamlar dövlət orqanlarına, xüsusən RİH başçısı aparatına müraciət edərkən inanırlar ki, burada onları səmimi qəbul edən, fikir və düşüncələrini dəyərləndirən, qaldırılan problemlərin həllinə kömək edəcək bir kollektiv çalışır.

Bu günlərdə Salyan rayonunun 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları, qarşıda duran vəzifələrlə əlaqədar keçirilən ümumrayon yığıncağında qeyd edildiyi kimi, rayon İcra Hakimiyyəti başçısı aparatına vətəndaşlardan 520 ərizə, şikayət və təklif daxil olmuşdur.

Müraciətlər mahiyyəti üzrə araşdırılmışdır və 115 müraciət torpaq məsələləri, 110 müraciət mənzil məsələləri, 60 müraciət sosial müdafiə məsələləri, 58 müraciət isə şəhərsalma və tikinti məsələləri ilə əlaqədar olmuşdur ki, bu da ümumi müraciətlərin 65,9 %-ni təşkil etmişdir.

Daxil olmuş müraciətlərlə əlaqədar vətəndaşlarla istər yaşayış yerlərində, istərsə də rayon İcra Hakimiyyətinə dəvət olunaraq müraciətləri dinlənilmiş və mümkün olan tədbirlər görülmüşdür.

2018-ci ilin birinci yarımilində ümumilikdə 748 nəfər vətəndaş rayon İcra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir.

Rayon İcra Hakimiyyəti başçısının III günlər keçirilən rəsmi qəbulunda 627 nəfər vətəndaş qəbul edilmiş və müraciətləri dinlənilmişdir.

Qəbullarda edilmiş müraciətlər mahiyyəti üzrə araşdırılmışdır. Onların böyük əksəriyyətini əhalinin sosial müdafiəsi və mənzil məsələləri təşkil etmişdir.

2018-ci ilin birinci yarımilində 21 kənddə rayon İcra Hakimiyyəti başçısının səyyar görüş-qəbulları keçirilmişdir.

Səyyar görüş-qəbullarda 2123 nəfər vətəndaş iştirak etmiş, 121 müraciət dinlənilmiş və müraciətlərlə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

Pambıq tarlalarında becərmə davam etdirilir

Son illər Salyan rayonunda pambıqçılığa xeyli maraq artıb. Təsərrüfat sahibləri becərdikləri pambıq sahələrindən daha çox məhsul götürməyə səy göstərirlər. İndi kəndlinin qayğılı günləridir. Səhər açılandan qaş qaralana kimi, taxıl zəmilərində, pambıq tarlalarında, bostanlarda, bağ-bağçalarda iş başdan aşır.

Taleyini torpağa bağlayan, dövlətin qayğısından güc alıb zəhmətinə güvənən kənd adamları məhsul bolluğu uğrunda fədakarlıqla çalışırlar. Rayonda strateji kənd təsərrüfatı sahəsi hesab edilən pambıqçılığın inkişafına böyük önəm verilir. İstifadə edilməyən torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına pambıq əkinlərinin sahəsi ildən-ilə genişləndirilir. Bu il Salyan rayonunda 7055 hektar sahədə pambıq əkilib. Hədəf hər hektardan orta hesabla 20 sentner məhsul götürməkdir.



Əkin vaxtında və optimal müddətdə aparıldığından hər yerdə normal çıxış alınıb. Becərmənin ilk günündən bitkilər seyrəldilib, sahələr alaq otlarından təmizlənib, zərərverici və ziyanvericilərə qarşı lazımi tədbirlər görülüb. Bununla yanaşı cərgələrarasına bir neçə dəfə kultivasiya çəkilib, həmçinin suvarma işləri aparılıb. Pambıq tarlalarına aqrotexniki qaydada qulluq edildiyindən bitkilər xeyli inkişaf edib. Hazırda pambıq kollarının üzərində bir necə qoza olmaqla yanaşı, xeyli sayda gül-daraq da var. Bu da gələcəyin bol məhsulundan xəbər verir.

Hazırda tarlalarda becərmə işləri davam etdirilməklə bərabər üçüncü suvarmaya başlanılıb. Torpaq sahibləri suvarma zamanı göllənməyə yol verməmək üçün daha diqqətli olur, suya qənaət etməyə çalışırlar. Onların dediyinə görə, bundan sonra pambıq tarlaları bir dəfə də suvarılacaq.

Bir zamanlar pambıqçılıqdan əldə etdikləri gəlirlə özlərinə güzəran quran, geniş və yaraşıqlı yaşayış evləri tikdirən, minik maşınları alan, ailə qayğılarını qarşılayan kəndlilər həvəslə yenidən pambıqçılığa üz tuturlar.

Ümumiyyətlə, yaxın keçmişdə tənəzzülə uğramış, gözdən salınmış pambıqçılıq ölkənin pambıqçılıqla məşğul olan digər regionlarında olduğu kimi, Salyanda da dirçəliş dövrünü yaşayır.

Milli mətbuatımızın bayramı Salyanda da qeyd edildi

Milli Mətbuat Günü münasibətilə Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov "Qələbə" qəzetinin kollektivini qəbul etmişdir. RİH başçısının müavinlərinin və qəzetin yaradıcı kollektivinin iştirak etdiyi tədbirdə çıxış edən RİH başçısı S.Hətəmov bayram münasibətilə rayon jurnalistlərini təbrik etmiş və müasir həyatımızda KİV-lərin rolu və əhəmiyyəti barədə danışmışdır. Natiq bildirmişdir ki, bu gün jurnalistika sahəsində çalışanlar, ictimaiyyətimiz çox yaxşı bilir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daim mətbuat işçilərinə diqqət və qayğı ilə yanaşmışdır. Demokratik cəmiyyətin əsas göstəricilərindən olan söz və mətbuat azadlığının təmin olunması, Kütləvi İnformasiya Vasitələrinin fəaliyyəti və inkişafı üçün ölkədə münbit şərait yaradılmışdır. Milli Mətbuatımızın 143 illik tarixindən söz açan RİH başçısı ölkə mətbuatının inkişafından, regionda nəşr edilən qəzetlərin, o cümlədən "Qələbə"nin keçdiyi şərəfli və məsuliyyətli yoldan danışmışdır. Qeyd edilmişdir ki, rayonun ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan rayon mətbuatı ümummilli lider Heydər Əliyevin Salyan rayonuna tarixi səfərlərini, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Regionların sosial-iqtisadi inkişafı layihəsi çərçivəsində rayonda görülən işlərin salnaməsini yaratmış, bu işdə əzmkarlıq və peşəkarlıq göstərən salyanlıların fəaliyyətini geniş işıqlandırmışdır.

RİH başçısının müavini Rəşad Cəbrayılov ölkə rəhbərinin diqqət və qayğısı nəticəsində Salyanda həyata keçirilən abadlıq-quruculuq işlərində və icra edilən layihələrin təşviqində "Qələbə" qəzetinin jurnalist kollektivinin əməyini yüksək qiymətləndirmişdir. Jurnalistlərdən Leyla Nəsirova və Əzizağa Məmmədli milli mətbuatımızın inkişafına, zamanın sınağından çıxmış qocaman mətbu orqanımızın nəşrinə, əməkdaşlarına göstərilən diqqət və qayğıya görə, rayon rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

RİH başçısı Sevindik Hətəmov jurnalistləri bir daha təbrik etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

"Hər birimiz Vətənə xidmət edirik"

Müdafiə Nazirliyi qalib jurnalistləri mükafatlandırdı

Müdafiə Nazirliyinin və Mətbuat Şurasının Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə elan etdiyi yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunan mərasimdə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı təbrikini çatdırıb.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan Ordusunun 100 illiyini əlamətdar bir tarix adlandırıb, ordu və media arasında yüksək əlaqələrin mövcud olduğunu vurğulayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı nazirliyin Mətbuat Şurası ilə birgə ilk dəfə belə bir tədbir keçirdiyini, müsabiqəyə 70-ə yaxın yazı təqdim edildiyini açıqlayıb.

Müsabiqəyə martın 30-dan iyunun 10-dək olan müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında dərc edilən yazılar buraxılıb. Yazılarda mövzunun dolğun əhatə edilməsinə, faktlardan istifadə xüsusiyyətlərinə və araşdırmanın keyfiyyətinə, ifadə vasitələrinin zənginliyinə, oxucu üçün informativlik dərəcəsinə, müqayisəli təhlil üslubundan istifadəyə üstünlük verilib. Təqdim olunan yazılar diqqətlə yoxlanıldıqdan sonra qaliblər müəyyənləşdirilib.

Sonra müsabiqədə iştirak edən jurnalistlərə diplom və qiymətli hədiyyələr təqdim edilib. Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr edilən "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinin qalibləri arasında "Qələbə" qəzetinin əməkdaşı Rüstəm Məlikov da var.

Fərdi jurnalist yazıları qiymətləndirildi

İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. İclası giriş sözü ilə açan Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələlər barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" Sərəncamına əsasən qəzetlərə maliyyə yardımının ayrılması məsələsi müzakirə olunmuş, müvafiq qərar qəbul edilmişdir.

Fondun 22 iyul Milli Mətbuat Günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri də müzakirə edilərək təsdiqlənmişdir. Bu barədə məlumat verən Fondun icraçı direktoru 22 iyul Milli Mətbuat Günü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqaməti əhatə etdiyini bildirib. Yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini deyən Vüqar Səfərli ümumilikdə 112 nəfər jurnalistin mükafatlandırılacağını diqqətə çatdırıb.

Qəzetimizin əməkdaşı Rüstəm Məlikovun KİVDF-nin elan etdiyi "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə müsabiqəyə təqdim etdiyi "Cümhuriyyət dövründə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu" yazısı fondun Müşahidə Şurasının ekspertləri tərəfindən fərqləndirilərək III yerə layiq görülmüş və pul mükafatı ilə təltif edilmişdir.

Cümhuriyyət dövründə Milli mətbuatımız

Ölkəmizdə Milli mətbuatımızın yaranma tarixi 22 iyul 1875-ci ildən başlayır. O dövrdən keçən 143 il ərzində milli qəzetçiliyimiz şərəfli tarix yaşamış, öz üzərinə düşən maarifçilik, milli birlik ideyalarının təbliği missiyalarını uğurla yerinə yetirmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə bu ilin ölkəmizdə Xalq Cümhuriyyəti ili elan olunduğu, əlamətdar tarixi hadisənin dövlət səviyyəsində qeyd edildiyi bir zamanda Xalq Cümhuriyyəti illərində mətbuatımızın 100 il əvvəlki tarixini, burada çalışan söz, fikir, əqidə adamlarını xatırlamaq olduqca vacibdir.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi qısa vaxt ərzində ölkədə bir çox sahələrin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdi. Şərqdə ilk Demokratik Respublikanın qurucuları xalqın ümumi tərəqqisinə, demokratik cəmiyyətin formalaşmasına çalışmışlar. Mətbuat sahəsi də bu dövrdə xüsusi inkişaf yolu keçərək ölkə həyatının işıqlandırılmasına, xalqın tribunası olaraq problemlərin gündəmə gətirilməsinə töhfələr vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyasının ikicildliyinin I cildində qeyd edilmişdir ki, "Azərbaycan mətbuat tarixində 1918-1920-ci illər bütün əvvəlki dövrlərə nisbətən ən yüksək inkişaf mərhələsidir. Bu dövri mətbuat həm keyfiyyət, həm də kəmiyyət baxımından milli mədəniyyətin mühüm tərkib hissəsi kimi Azərbaycan həyatının canlı salnaməsinə çevrildi. İki il içərisində ölkədə 100-ə yaxın adda qəzet və jurnal çıxmışdır". Adı çəkilən mənbədə daha sonra qeyd edilir ki, 27 iyun 1918-ci il tarixli qərarı ilə Azərbaycan dilini dövlət dili elan etmiş AXC dövründə eyni zamanda rus, gürcü, erməni, polyak, fars, alman və qeyri dillərdə də qəzetlər nəşr edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Müsəlmançılıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918) və digər milli istiqlal ideyalı mətbuat orqanları nəşr olunmuşdur

Azərbaycanda Milli İstiqlal elan edildikdən sonra milli mətbuatın qarşısında duran əsas vəzifə Cümhuriyyətin qorunub saxlanılmasında daxili və xarici təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan, söz və ifadə azadlığına yeni meydan verməkdən ibarət idi. Yeni tarixi vəzifələri həyata keçirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin 15 sentyabr tarixində rəsmi orqan kimi "Azərbaycan" qəzetinin nəşrinə başladı. Akademik İsa Həbibbəylinin fikrincə, "Azərbaycan" qəzetinin meydana çıxması XIX əsrin ikinci yarısından başlanan və XX yüzilliyin əvvəlində genişlənib milli hərəkata çevrilmək proseslərini yaşayan azərbaycançılıq dalğasının məntiqi nəticəsidir.

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) də bizə AXC-nin yadigarıdır. AXC dövründə qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, AzərTAc Azərbaycanın dünyaya açılan informasiya pəncərəsi rolunu həmişə şərəflə yerinə yetirmişdir.

Cümhuriyyət hökuməti mətbuat azadlığını, milli şüurun, milli mədəniyyətin inkişafını vətəndaş cəmiyyətinin bərqərar olması üçün mühüm şərtlərdən hesab etmişdir. AXC Hökumətinin 1918-ci il 3 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərindən dövlət nəzarəti ləğv olunmuşdur.

Azərbaycan hökuməti və parlamenti vətəndaş cəmiyyətinin, milli ideologiyanın təşəkküründə mətbuat və nəşriyyatların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra qərarlar qəbul etmişdir. Parlamentin 1919-cu il 30 oktyabr tarixli qərarı ilə qəbul edilmiş "Mətbuat haqqında Nizamnamə"də göstərilirdi ki, mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması üçün, habelə çap məhsullarının nəşri və satılması üçün Hökumət idarəsindən heç bir icazə tələb olunmur". Dövri nəşrlərin təsis olunması üçün öz məqsədləri barədə mətbuat işləri üzrə baş müfəttişə ərizə təqdim edilməsi kifayət idi. Nizamnaməyə əsasən, mətbuat orqanı ancaq qüvvədə olan qanunları pozub cinayət törətdikdə məhkəmənin qərarı ilə məsuliyyətə cəlb edilə bilərdi.

Qətiyyətlə deyə bilərik ki, milli mətbuatımız ilk istiqlalımızın təkcə yol yoldaşı olmamış, həm də Cümhuriyyətin tarixi salnaməsini yaratmışdır. Çağdaş milli mətbuatımız fəxarət doğuran bu məktəbin yetirməsidir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, müstəqilliyimizi bərpa etdikdən sonra da mətbuat milli dövlət quruculuğu prosesində ön mövqedə dayandı. Odur ki, istər əsrin əvvəlində, istərsə də sonunda Azərbaycan milli mətbuatının uğurları birbaşa istiqlal düşüncəsi, dövlət müstəqilliyi ilə bağlıdır.

Azərbaycan polisinin 100 ilik şərəf yolu

İyulun 2-də Salyan rayon Heydər Əliyev Mərkəzində "2 iyul-Polis işçilərinin peşə bayramı günü" və 100 ilik yubleyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon polis şöbəsinin əməkdaşları Azərbaycan qanunlarına, xalqa, Vətənə, Ümummilli Lider Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevə daim sadiqdirlər və ictimai asayişin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında bundan sonra da şərəflə çalışacaqlar. Çıxış edənlər polis işçilərini peşə bayramları münasibətilə təbrik etmiş, Azərbaycan polisinin ən çətin məqamlarda dövlətçiliyimizi qoruduqlarını, sabitliyin, əmin-amanlığın keşiyində durduqlarını, vətəndaşların hüquq və azadlıqlarının etibarlı təminatçısı kimi bu gün də öz vəzifə borcunu şərəflə yerinə yetirdiyini diqqətə çatırmışlar. Tədbirin sonunda xidmətdə fərqlənən bir qrup polis əməkdaşı rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanı ilə təltif edilmiş, qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yaranmasının 25-ci ili tamam oldu

10 iyul 2018-ci il tarixində Salyan rayon İcra Hakimiyyətində Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül- çiçək dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, idarə, müəssisə və təşkilat rəhbərləri, şura üzvləri, partiya fəalları və idarə heyətinin üzvləri iştirak etmişlər. Tədbirdə Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə siyasi həmfikirləri təbrik etmiş, Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında Yeni Azərbaycan Partiyasının mühüm rolu və xidmətləri olduğunu bildirmiş, partiyanın rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulamışdır. Daha sonra tədbirdə YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov çıxış edərək partiyanın 25 ildə keçdiyi əzmkar yoldan, siyasi meydana çıxmasının mövcud ictimai-siyasi şəraitdən asılı olmasından danışmış, rayon təşkilatının fəaliyyəti haqqında məlumat vermişdir. Natiq bildirmişdir ki, YAP Salyan rayon təşkilatı rayonda keçirilən bütün ictimai-siyasi tədbirlərdə yaxından iştirak etmişdir.

Tədbirin yekununda Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə rayonun ictimai-siyasi həyatında fərqlənənlərə Salyan rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanları təqdim edilmişdir.

Salyan rayon İcra Hakimiyyətinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı hesabat yığıncağı keçirilmişdir.

"Dayanıqlı inkişaf naminə rayon qadınlarının liderliyi və iqtisadi fəallığının təşviqi" mövzusunda regional konfrans

Salyan rayon Heydər Əliyev Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, BMT İnkişaf Proqramı və Coca-Cola Fondunun birgə əməkdaşlığı ilə "Rayon qadınları və gənclərinin iqtisadi və sosial həyatda fəal iştirakının təşviqi" layihəsi çərçivəsində "Dayanıqlı inkişaf naminə rayon qadınlarının liderliyi və iqtisadi fəallığının təşviqi" mövzusunda qadınların Regional konfransı keçirilmişdir. Konfrans iştirakçıları öncə Ümummilli liderimiz Heydər Əliyev adına Parkda Ulu Öndərin abidəsini ziyarət etmiş, önünə gül-çiçək dəstələri düzmüşlər. Regional konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır. Konfransda Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, BMTİP Rezident Nümayəndəsi Alessandro Frakassetti, Coca-Cola Qafqaz və Mərkəzi Asiya Regionu üzrə Baş Menecer Eser Sevinc Manav, rayonda fəaliyyət göstərən qadın təşkilatlarının təmsilçiləri, sahibkar qadınlar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Salyan, Neftçala, Sabirabad, Biləsuvar və Masallı rayonlarının qadınlarının iştirakı ilə keçirilən konfransın məqsədi rayon qadınlarının öz problem və perspektivlərini ifadə etmələri üçün ictimai platforma olmaqla yanaşı, kənd qadınlarının prioritetlərinin milli dövlət siyasətində əks etdirilməsinə nail olmaqdır. Konfransda rayon icmalarında güclü liderlik roluna sahib olmaq üçün qadınların təşviq edilməsi, kənd və rayon qadınlarının problemlərinin açıq müzakirəyə çıxarılması, rayon qadınlarının başqa rayonlardan gələn xanımlarla şəbəkələşməsi, yerli səviyyədə fəallıq və milli səviyyədə təmsil olunmaq üçün qadınların təcrübə mübadiləsi və strateji əməkdaşlıq üçün şərait yaradılması mövzusunda çıxışlar edilmişdir. Konfransda Salyanda qadın biznesinə dəstək proqramının qaliblərinə sertifikatlar təqdim edilmiş, biznes sahəsində uğur əldə etmiş qadınlar haqqında videoçarxlar nümayiş olunmuşdur. Daha sonra rayon qadınları və sahibkarlıq (kənd təsərrüfatı və qeyri-aqrar bizneslər, həyətyanı təsərrüfatlar və sair qadın bizneslər); Rayon qadınlarının peşə təhsili (evdən işləməklə bazara çıxarıla bilən məhsulların satışı, ixtisasın artırılması və dəyişilməsi, davamlı təhsil və sair); Rayon qadınlarının sosial iştirakı və liderliyi (qadınların sosial fəallığının təşviqi, gender əsaslı və qadınlara qarşı zorakılıq, ictimai fəallıq, fəal qadınların şəbəkələşməsi və sair) mövzularında dəyirmi masalar ətrafında müzakirələr aparılmış və moderatorlar tərəfindən təqdimatlar keçirilmişdir.

Salyan rayon İcra Hakimiyyətində vətəndaşların qəbul günləri

S.H.Hətəmov rayon İcra Hakimiyyətinin başçısı	III gün-saat 11:00-dan başlayaraq;
E.Y.Hüseynov Başçının I müavini	I-V günlər-saat 15:00-dan başlayaraq;
T.T.İsmayılova Başçının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	II-IV günlər-saat 15.00-dan başlayaraq;
R.Y.Cəbrayılov Başçının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri	I-IV günlər-saat 15.00-dan başlayaraq;
Ə.A.İsayev RİH başçısı aparatı ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri	I-VI günlər-saat 10:00-dan başlayaraq;
E.T.Hənifəli RİH başçısı aparatı hüquq şöbəsinin müdiri	I-V günlər-saat 10:00-dan başlayaraq;
T.S.Hüseynov RİH başçısı aparatı memarlıq və tikinti şöbəsinin müdiri	II-IV günlər-saat 10:00-dan başlayaraq
S.F.Məhərrəmov RİH başçısı aparatı sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri	I-II-IV-V-VI günlər saat 10.00-dan başlayaraq

Oxucularımız təbrik edirlər

Milli mətbuatımızın 143 illiyi ölkə ictimaiyyəti tərəfindən geniş qeyd edilib. Sözün, mətbu azadlığın çoxdan bərqərar olduğu Azərbaycanda böyük jurnalist ordusu fəaliyyət göstərir. Onların sırasında peşə borcunu layiqincə yerinə yetirən, dövrün, zamanın salnaməsinin yaradılmasında fəal iştirak edən həmkarlarımız daha çoxdur.

Azərbaycan mətbuatının böyük bir qolu təbii ki, region mətbuatıdır. Oxucularına daha yaxın, onlarla daha sıx münasibətdə olan region mətbuatında çalışan həmkarlarımız da 22 iyul-Mətbuat Günündə bu özəl tarixin sevincini oxucuları ilə birlikdə yaşamış, müxtəlif tədbirlərin iştirakçısı və təşkilatçısı olmuşlar.

"Qələbə" qəzetinin redaksiyası mətbuat günü ərəfəsində qonaqlı-qaralı olmuşdur. Qəzetin veteran əməkdaşları çoxillik oxucuları bizimlə birlikdə olmuş, çay süfrəsi arxasında bayram ovqatlı gün yaşamışlar. Təqaüddə olan jurnalist Fəxrəddin Fərzəliyev keçmiş iş yerinə gələrək arxada qalan illəri yenidən yaşamışdır. Oxucularımızdan Mətləb Axundov, Vilayət Əsgərov, Zabil Pərviz, Alimə Möhsümova, Ramil Mirzəyev həmin gün bizimlə birlikdə olmuşlar. Zəng edib telefon açan, təbrik edən oxucularımıza, dostlarımıza-tarix müəllimi Sahib Həsənova, istefada olan polis veteranı Mübariz Hümbətova, rayon məhkəməsinin sədri Ələvsət Paşayevə, Salyan OİL əməliyyat şirkətinin rəhbəri Balakişi Bağırova, Bakı şəhərindən Mehman Əliyevə, İlham Axundova, Aqil Məlikova və onlarla digər diqqətcil oxucularımıza təşəkkür və minnətdarlığımızı bildiririk.

Ordumuzun 100 illiyi "N" saylı hərbi hissədə qeyd edildi

Əsası 100 il öncə Xalq Cümhuriyyəti dövründə qoyulmuş Milli Ordumuzun 100 illik yubileyi respublikamızda böyük təntənə ilə qeyd edilmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münastbətilə iyunun 26-da Bakının Azadlıq Meydanında təntənəli hərbi parad keçirilmişdir. Dövlət başçımız, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, Birinci vitse-prezident xanım Mehriban Əliyeva paradda olmuşlar. Dövlət və hökumət rəsmiləri, Milli Məclisin duputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları və digər qonaqlar, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləmişlər.

Silahlı Qüvvələrimizin yaradılmasının 100 illiyi münasibətilə bölgələrdə də maraqlı tədbirlər keçirilmişdir. Rayonumuzun ərazisində yerləşən "N" saylı hərbi hissənin şəxsi heyəti və rayon ictimaiyyətinin nümayəndələri hərbi hissədə yaddaqalan bayram tədbiri keçirmişlər.

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı rayon komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bayram tədbirində rayon təhsil şöbəsinin, ziyalılar birliyi, müharibə veteranları təşkilatlarının təmsilçiləri iştirak etmişlər. TİAHİ rayon komitəsinin sədri Yaqut Ələsgərova çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş və müstəqiliyimizin qarantı olan ordu quruculuğumuzun formalaşmasında və bu günkü müasir səviyyəyə çatmasında ümummilli lider Heydər Əliyevin və möhtərəm Prezidentimiz Ali Baş Komandan İlham Əliyevin tarixi xidmətlərini qeyd etmişdir.

Rayon təhsil şöbəsinin aparıcı-məsləhətçisi, Əməkdar müəllim Fərqanə Cəbrayılova, rayon Ziyalılar birliyinin sədri Allahverdi Piriyev, Silahlı Qüvvələr, Müharibə və Əmək Veteranları Şurasının sədri Vilayət Əsgərov və başqaları çıxış edərək bildirmişlər ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən böyük hərbi gücə malik Silahlı Qüvvəsidir. Dünya hərb meydanında özünəlayiq yer tutan qüdrətli ordumuz bu gün torpaqlarımızın azad edilməsi üçün hər cür döyüş tapşırığını bacarıqla icra etməyə qadirdir. Lələtəpə və Günnüt hərbi zəfərləri ilə ən yüksək səviyyədə döyüş hazırlığını sübut edən Silahlı Qüvvələrimizin peşəkarlığı, maddi-texniki təchizatı beynəlxalq reytinq agentlikləri tərəfindən də müsbət qiymətləndirilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək gücündədir, qələbə bayrağımızı Şuşada, Xankəndində dalğalandırmaq iqtidarındadır".

Hərbi hissədə keçirilən tədbirdə əsgər və zabitlər qarşısında rayon Q.Əsgərov adına uşaq incəsənəti məktəbinin musiqi kollektivləri vətənpərvərlik ruhlu musiqi nömrələri nümayiş etdirmiş, 2 saylı şəhər tam orta məktəbinin şagirdjləri isə Vətənə, ordumuza həsr olunmuş kompozisiya səsləndirmişlər.

Yubiley tədbirində hərbi hissənin əsgər və zabitlərinə TİAHİ tərəfindən Azərbaycanın Milli Bayrağı və bayram hədiyyələri təqdim edilmişdir.

Məzunlarımız nəticələrini artırırlar

Xəbər verdiyimiz kimi, rayonumuzun orta məktəblərinin məzunları ali təhsil ocaqlarına tələbə qəbulu üzrə keçirilən imtahanların ilkin turunda yüksək nəticələr göstərmiş və 21 nəfər 600-dən yuxarı bal toplayaraq ölkəmizin ən nüfuzlu ali məktəblərində təhsil almaq hüququ qazanmışlar.

Qəbul imtahanlarının ikinci turu da həmyerlilərimiz üçün uğurlu olmuşdur. Bizdə olan və sosial şəbəkələrdə yayılan məlumatlara görə yüksək bal toplamış məzunlarımız öz nəticələrini xeyli yaxşılaşdırmış və 600 səddini keçənlərin sayı artmışdır. Fərəhlidir ki, Şorsulu kənd tam orta məktəbinin məzunu Aytac Qəhrəmanova birinci turda 546 bal toplamışdı. O, ikinci turda 606 bal toplayaraq bu göstəricini yeniləmişdir. Rayon məzunları arasında birinci turda 675 bal toplayaraq ən yüksək nəticə göstərmiş 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin məzunu Faiq Ağabəyov bu nəticəni 680 bala çatdıra bilmişdir. Rayon üzrə ən yüksək nəticəni isə Salyan şəhər 2 saylı tam orta məktəbin məzunu Anaxanım Rüstəmova əldə etmişdir. O, ilkin nəticəni - 655-i 690-a çatdırmaqla hələlik rayonun birincisi olmuşdur. 8 saylı tam orta məktəbdə də məzun Çimnaz Cabbarova ilkin topladığı 607 balı üstələmiş onun üzərinə 60 bal da əlavə etməyə nail olmuşdur. İndi Çimnazın 667 balı var. Qalibləri bir daha təbrik edirik.

4 kəndi birləşdirən avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir

Uzun müddət əsaslı şəkildə təmir olunmayan Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu avtomobil yolunun yenidən qurulmasında məqsəd yol boyu yaşayan 11 min nəfər əhalinin gediş-gəlişini təmin etmək, Salyan şəhər mərkəzinə və M3 Bakı-Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoluna rahat çıxış əldə olunmaqla yük və sərnişin daşımasını asanlaşdırmaqdır.

Sözügedən yol boyu işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır. Tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb olunmaqla aparılan yenidənqurma işləri çərçivəsində uzun müddət əsaslı şəkildə təmir olunmadan istismar olunan və deformasiyaya uğramış yol 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir.

Yolun eni 11 min kubmetr həcmində 10 metrə qədər genişləndirilib. Bura 6 metr enində hərəkət hissəsi və 2 metr enində çiyinlər daxildir. Aparılan genişləndirmə işləri öz növbəsində bütün sürücülərin normal və təhlükəsiz hərəkətinə hesablanıb.

Tikinti layihəsinə uyğun olaraq 900 kubmetr ölçüdə yararsız quruntun qazılıb çıxarılması, əvəzinə yararlı material tökülərək əks-dolğu və kipləşdirmə işləri aparılıb. Bu işlərə paralel olaraq yol boyu 52 min kvadratmetr sahədə çiyin hissələrin optimal qum-çınqıl qarışığı ilə bərkidilməsi işləri də görülüb.

Tikintidə norma və standartlara uyğun olaraq növbəti mərhələdə 131 min kvadratmetr həcmdə qum-çınqıl və optimal-qırmadaş qarışıqlarından istifadə olunmaqla yol əsasının alt və üst layının inşası işləri aparılıb. Hazırda isə 2 qat olmaqla yola xırda və iri dənəli asfalt-beton qarışığından asfaltlanma işləri aparılır. Bu çərçivədə yolun 79 min kvadratmetr sahəsinə standartlara cavab verən yüksək keyfiyyətli

asfalt-beton örtük döşənir.

Yol boyu yaşayan vətəndaşların pay torpaqlarında becərdikləri kənd təsərrüfatı məhsullarının suvarılması və məişətdə istifadəsi üçün yolun altından suların ötürülməsi məqsədi ilə mövcud dəmir-beton borular bərpa olunub, zəruri olan yerlərdə müxtəlif diametrli yeni boruların quraşdırılması işləri aparılıb. Ümumilikdə, yol boyu 72 paqon-metr 300 mm diametrli dəmir, 84 paqon-metr 500 mm, 60 paqon-metr 750 mm və 60 paqon-metr 1000 mm diametrli dəmir-beton borular quraşdırılıb.

Tikinti layihəsinin sonuncu mərhələsində zəruri olan yerlərdə 5 ədəd avtobus dayanacağının tikintisi, 13 ədəd km göstəricinin, 93 ədəd yol nişanı və məlumatverici lövhələrin, 285 ədəd siqnal dirəklərinin quraşdırılması və yolun üfüqi nişanlanma xətlərinin çəkilişi ilə sözügedən yollarda müasir yol infrastrukturu yaradılaraq vətəndaşlarımızın istifadəsinə veriləcək. Tikinti işlərinin yaxın aylarda tam olaraq yekunlaşdırılması nəzərdə tutulub.

Salyan rayonunda fəaliyyət göstərən "Ana Kür İçtimai birliyi icra etdiyi "Qəhrəmanlıq unudulmur" adlı layihəni Lənkəran şəhərində yekunlaşdırmışdır

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işi daimi prosesdir. Bu sahədə müxtəlif Dövlət Proqramları icra olunur. Məqsəd bəllidir. Biz 30 ilə yaxındır ki, məkirli, hiyləgər bir düşmənlə, arxasında böyük güclər dayanan Ermənistanla müharibə vəziyyətindəyik. Ona görə də böyüməkdə olan gənc nəsil Azərbaycan xalqının tarixində baş vermiş hadisələrin səbəbini dərindən başa düşməli, müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olan qəhrəman oğullarımızı yaxşı tanımalı, onların qəhrəmanlıqları ududulmamalı, yeni nəsil qəhrəmanlar yetişməlidir. Dövlətimiz bu istiqamətdə digər tədbirlərlə yanaşı vətəndaş cəmiyyəti inistutlarının təşəbbüslərinə dəstək verməkdədir. Yaradılmasının 10 yaşı bu günlərdə qeyd edilən Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının bu sahədəki fəaliyyəti xüsusi ilə qənaətbəxşdir. Şura 2018-ci il üçün elan etdiyi maliyyə müsabiqəsində Salyan rayonunda fəaliyyət göstərən "Ana Kür içtimai birliyinin "Qəhrəmanlıq unudulmur" devizi ilə gənclərin şəhid ailələrinə dəstək təşəbbüslərinin təşkili" layihəsinə də dəstək vermişdir.

Üç ay müddətində icra olunmuş layihə çərçivəsində gənclərdə vətənpərvərlik hislərinin daha dərindən formalaşması üçün ictimai birlik tərəfindən müxtəlif tədbirlər keçirilmiş, yerli təşəbbüslərə dəstək göstərilmişdir. Tədbirlərdə Şəhid valideynlərindən Cahangir Qaraşov, Tahirə Xankişiyeva, Tahirə Abasova, Rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai birlinin Salyan filialının sədri Arif Əskərov, Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin sədri Nəbi İbrahimov, Rayon İcra Hakimiyyətinin, Təhsil, Gənclər və İdman, və digər təşkilatların rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak və çıxış etmişlər. İctimai birlik tərəfindən iştirakçılara "Ana Kür" qəzetinin maarifləndirici materialları çap edilmiş sayları, hələ də işğal altında olan ərazilərimiz barədə məlumatı əks etdirən Press-relizlər və Azərbaycan Bayrağının stolüstü nümunələri paylanmışdır.

Şəhid ailələrinin həyatyanı ərazilərində məhsuldar meyvə ağaclarının əkilməsində şəhid adları daşıyan məktəblərdə vətənin müdafiəsi uğrunda igidlik göstərərək həyatını qurban vermiş şəhidlərin ad günlərinin təşkilində, "Qəhrəmanlıq unudulmur" mövzusunda dəyirmi masaların keçirilməsində vətənin qəhrəman oğulları xatırlanmış, 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilən Milli Ordumuzun Aprel döyüşlərində göstərdiyi igidlik və qəhrəmanlıqlarından danışılmışdır.

Şəhid atası Cahangir Qaraşov icra olunan layihənin gənclər tərəfindən şəhid ailələrinə göstərilən münasibətə dövlətimizin də dəstək olmasını və bu işə xüsusi maliyyə yardımı göstərdiyini qayğının təzahürü kimi qiymətləndirmişdir. Rayon Peşə Liseyinin direktoru Razıgül Dadaşova bildirmişdir ki, Salyan Peşə liseyinin şəhid məzunları ilə hər bir rayon sakini fəxr edir, qürur hissi keçirir. Ölkəmizin ərazi bütovlüyünün müdafiəsində və müstəqilliyimizin qorunmasında bir nəfər Milli Qəhrəman olmaqla, ümumilikdə 40 nəfər məzunu şəhid olub. Kollektivimiz onlarla fəxr etməklə yanaşı, şəhid məzunların xatirəsini daima uca tutur. Təşəbbüsümüzə dəstək olaraq Liseydə şəhid məzunlara həsr edilmiş "Qəhrəmanlıq unudulmur" xatirə güşəsinin "Ana Kür" ictimai birlik tərəfindən hazırlanmasına dəstək verilməsi təqdirəlayiq haldır.

İcra Planına uyğun olaraq rayonun məktəbli yeniyetmələrinin Bakı və Lənkəran şəhərlərinə səfərləri təşkil edilmişdir. Salyanlı gənclər öncə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsi qarşısında baş əyərək məzarı önünə tər gül-çiçək dəstələri düzüblər. Sonra tədbir iştirakçıları Fəxri Xiyabanda uyuyan istiqlal şairi Xəlil Rzanın məzarı önünə toplaşıb və azadlıq carçısının poeziyasından nümunələr söyləyərək ruhunu ehtiramla yad ediblər.

Şəhidlər Xiyabanına gələn gənclər burada torpaqlarımızın ərazi bütövlüyü və müstəqilliyimizin müdafiəsində həlak olan şəhidləri, o cümlədən 20 Yanvar şəhidi Elçin Beydulla oğlu İmanovu və Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylini yad edib, şəhidlərin məzarı üzərinə gül-çiçək dəstələri düzüblər. Təbriz Xəlilbəylinin məzarı önündə məktəb şagirdləri ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

"Ana Kür" ictimai birliyi layihə çərçivəsində son tədbirinə Lənkəran şəhərində yekun vurmuşdur. 25 nəfərdən ibarət tur heyətində gənclərlə yanaşı Salyan rayonunun

QHT təmsilçiləri, KİV nümayəndələri iştirak etmişlər. Səfər avtobusunu Dövlət Avtomobil Müfəttişliyinin əməkdaşları müşahidə etmişlər.

"Xalq Cümhuriyyətinin ili" ndə ordu quruculuğumuzun 100 illik yubileynin qeyd edildiyi günlərdə keçirilən tədbirdə Lənkəran şəhərində doğulub boya-başa çatmış, ikinci dünya müharibəsində alman işğalçıları ilə müharibədə igidlik göstərərək iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Həzi Aslanovun ev muzeyi ziyarət edilmişdir. Muzey əməkdaşları cəmi 34 il yaşamış qəhrəmanın şərəfli döyüş yolundan danışmış, xalqımızın yetirdiyi qəhrəman oğulların igidliklərinin heç zaman unudulmayacağını qeyd etmiş, Azərbaycan Prezidenti, Ali Baş komandan İlham Əliyev tərəfindən ordumuzun döyüş qabiliyyətinin dünyanın ən qabaqcıl silahlı qüvvələri səviyyəsində olması üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərdən danışmışdır. Müzeyin 5 nümayiş zalında H.Aslanovun şəxsi əşyaları ilə yanaşı onun döyüş yolunu əks etdirən eksponatlar, aldığı təltiflər, cəbhə dostları ilə xatirə şəkillər, istifadə olunmuş tank-döyüş sursatları salyanlı gənclərdə böyük təəsurat oyatmışdır. Muzeyin həyətində 100 il əvvəl qəhrəmanın özü tərəfindən əkilmiş badam ağacının altında indi məğrur- məğrur dayanan büstü önünə gül dəstələri qoyulmuş, xatirə şəkil çəkdirilmişdir.

İcra olunan layihə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının regionda fəaliyyət göstərən Qeyri Hökümət Təşkilatlarının işinə də müsbət təsir göstərdi.

Təsərrüfat xəbərləri

Taxıl biçini başa çatdı

Ötən ilin payızında bu ilin məhsulu üçün rayon üzrə 16813 hektar sahədə taxıl əkilib. Bunun da 8348 hektarı buğda, 8465 hektarı isə arpa sahəsidir. Taxıl biçi-

ni zamanı minbir zəhmətlə hasilə gətirilmiş məhsulu tez və itkisiz toplamaq üçün bütün qüvvələr səfərbərliyə alınıb. Görülmüş tədbirlər nəticəsində rayonumuzda taxıl biçini uğurla başa çatdırılıb.

Salyan Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Tariyel Ağamalıyevin qəzetimizin əməkdaşına verdiyi məlumata görə, cari təsərrüfat ilində 54 min 275 ton taxıl istehsal edilib ki, bu da hər hektardan 32,3 sentner məhsul deməkdir. Belə ki, buğda sahəsindən 29134 ton, arpa sahəsindən isə 25141 ton məhsul istehsal edilib. Ötən ildəkindən bu il məhsuldarlıq 0,2 faiz çoxdur.

Hazırda biçilmiş taxıl sahələrində şum qaldırılır.

Qarpızın ikinci yığımına hazırlıq görülür

Qarpız əkininə maraq göstərən təsərrüfat sahibləri öz pay torpaqlarında, eləcə də icarəyə götürdükləri sahələrdə qarpız əkib-becərilməsi ilə məşğul olurlar. Artıq qarpızın birinci yığımı başa çatıb. Hər hektardan 40-50 ton məhsul götürülüb. Təsərrüfat

sahibləri deyir ki, əkin sahələri daha yaxşı əkilib becərilərsə, bostandan 70 ton məhsul götürmək mümkündür. Ötən illə müqayisədə qiymətlər qənaətbəxşdir. Daha doğrusu indiki qiymətlər bostan sahiblərini qane edir. Elə yerindəcə bostançı öz məhsulunu 35-40 qəpiyə alıcıya sata bilir.

Yayın qızmar vaxtının ən dadlı, xeyirli bostan məhsulu olan qarpızı sevməyən tapılmaz. Min bir dərdin dərmanı, el arasında deyildiyi kimi, "xoruz pipiyi" rəngli ləti ilə böyükdən kiçiyə hər kəsin sevimli süfrə neməti olan qarpız yığımının ikinci mərhələsinə hazırlıq işləri görülür. Bostan sahələri suvarılır. Bir neçə gündən sonra bostanda ikinci yığıma başlanacaq. Qeyd edək ki, bu il rayonumuzda 822 hektar sahədə bostan bitkilərinin əkini keçirilib.

Kartofun məhsuldarlığı bol olub

Son illər Salyanda digər sahələrlə yanaşı kartofçuluğa da maraq artıb. Belə ki, kartof gəlirli sahə olduğundan ilbəil əkin sahələri genişləndirilir. Bu il torpaq sahiblərinin birgə səyi ilə kartof sahələri 420 hektara çatdırılıb. Kartof sahələri arqotexniki qaydada becərildiyindən, xəstəliklərə qarşı lazımi tədbir-

lər görüldüyündən bu il bol məhsul yetişdirilib. Əsas məsələ yetişdirilən məhsulu vaxtında toplamaq idi. Təsərrüfat sahibləri bunun öhdəsindən gələrək 420 hektar sahədən 5,1 min ton kartof istehsal ediblər ki, bu da ötən ildəkindən xeyli çoxdur.

İtkin düşmüş soydaşlarımızın ailələrinə mənəvi dəstək

Salyan rayon İcra Hakimiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkilatçılığı ilə "Nabat" çay evində nahar süfrəsi arxasında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər zamanı itkin düşmüş soydaşlarımızın ailələrinə mənəvi dəstək göstərilməsi məqsədilə tədbir keçirilmişdir.

Çıxış edənlər Qarabağ Müharibəsi əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Salyan rayon təşkilatının sədri Arif Əsgərov, Silahlı Qüvvələr, Müharibə və Əmək Veteranları Şurası Salyan rayon şöbəsinin sədri Vilayət Əsgərov, rayon mədəniyyət mərkəzinin direktoru Lətif Zərbəliyev vətən naminə, xalq naminə döyüşlərə atılaraq itkin düşmüş həmvətənlərimizin heç vaxt unudulmadığını, onların ailələrinə dövlətimiz tərəfindən daim diqqət və qayğı ilə yanaşıldığını bildirmişlər.

Şair-jurnalist Əzizağa Məmmədli vətənpərvərlik mövzusunda yazdığı şeirini söyləmişdir. Şorsulu kənd tam orta məktəbinin müəllimi Elmira Abıyeva itkin düşmüş qardaşı Füzuliyə həsr etdiyi şeirini söyləmiş, həvəskar aktyor Röyal Qurbanov, şagirdlər Vətən, torpaq, şəhid mövzusunda şeirlər səsləndirmişlər.

Rayon İcra Hakimiyyəti başçısı aparatının məsul işçisi Rahab Əhmədov ulu öndər Heydər Əliyevin Milli Ordu quruculuğu sahəsində gördüyü böyük işlərin möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, dünyanın ən güclü ordularından biri olan Milli Ordumuzun torpaqlarımızı hər an azad etməyə hazır və qadir olduğunu bildirmişdir.

Təcili yardıma müraciət edənlərin sayı çoxalıb

Son günlər respublikamızda havaların anomal keçməsi Aran zonası olan Salyandan da yan keçməyib. Rayonda kəskin istilər davam edir. İstidən bayıra çıxmaq belə müşkülə çevrilib. Belə bir vaxtda rayonda fəaliyyət göstərən təcili yardım stansiyasının əməkdaşlarının işi bir qədər də artıb. Əvvəlki günlərdən fərqli olaraq kəskin istilər düşəndən bəri stansiyaya müraciət edənlərin sayı xeyli çoxalıb. Əgər əvvəllər gün ərzində stansiyaya 20-25 nəfər müraciət edirdisə, indi 30-35-ə çatıb. Təcili yardım stansiyasından qəzetimizin əməkdaşına bildirib ki, daxil olan müraciətlər halsızlıq, başgicəllənmə təzyiqin aşağı düşməsi daha çox üstünlük təşkil edir.

Bununla yanaşı, halının pisləşdiyini görən bəzi vətəndaşlar özləri stansiyaya gəlir və həkimlər tərəfindən müayinə olunduqdan sonra ilk tibbi yardım alırlar. Havaların belə anomal keçdiyi bir vaxtda həkimlər günvurmadan qorunmaq üçün sakinlərə açıq havada çox olmamalarını, daha çox maye qəbul etmələrini məsləhət görürlər.

Qeyd edək ki, son günlər günvurma ilə bağlı stansiyaya müraciət edən olmayıb. Bununla belə təkcə son bir həftədə təcili yardım stansiyasına müxtəlif xəstəliklərdən əziyyət çəkən 250 nəfərə yaxın vətəndaş müraciət edib.

Cümhuriyyətin 100 illiyinə həsr olunmuş yaradıcılıq festivalı

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "100 illik tariximiz" devizi altında keçirilən "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı davam edir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihənin məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan xalqımızın mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir. Ötən həftə (25-26 iyun) festivalın ilk tədbirləri Masallıda və Lənkəranda keçirilmişdi.

Növbəti məkan - Salyan şəhəri olmuşdur

Festival çərçivəsində növbəti tədbir iyunun 30-da Salyan şəhərindəki Heydər Əliyev adına meydanda təşkil olunub. Meydanda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin festival çadırları qurulub, idarələr üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələrinin, rəsm və suvenirlərin, digər əl işlərinin sərgisi və satışı keçirilib.

Tədbirdə Mədəniyyət Nazirliyinin nümayəndələri, Salyan rayon rəhbərliyi, regional idarələrin rəhbərləri, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri və digər əl işləri ilə tanış olublar.

Sonra nazirliyin regional idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər.

Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən hərarətlə qarşılanıb. Rayon sakinləri bölgələrdə bu cür festivalların keçirilməsinə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Müxtəlif şəhər və rayonlardan gəlmiş sənətkarlar, əl işlərini həvəslə nümayiş etdirən ustalar festivalın təşkilindən, belə bir layihədə iştirak etməkdən məmnunluqlarını ifadə ediblər.

Daim zirvələrdə ol, Azərbaycan!

Lalələr bürüyüb dağların başın,
Gül-çiçək açmışdır, torpağın, daşın,
Gözəldir, nurludur baharın, qışın.
Öpüb torpağını söyləyirəm can,
Daim zirvələrdə ol, Azərbaycan!

Mübariz, yenilməz bir ordun vardır,
Havada şahinlər qatar-qatardır,
Uca dağ başında həmişə qardır,
Öpüb torpağını söyləyirəm can,
Daim zirvələrdə ol, Azərbaycan!

Sən qürur, əzəmət, şərəfsən, şansan,
Ellər heyran olur-cənnət məkansan,
Çətində, dar gündə mənə həyansan,
Öpüb torpağını söyləyirəm can,
Daim zirvələrdə ol, Azərbaycan!

Durna Asiman.

Respublikanın Əməkdar artistinin yaradıcılığı ilə bağlı tədbir

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Salyan rayon komitəsinin təşkilatçılığı ilə rayon mərkəzləşdirilmiş kitabxana sisteminin Nizami Gəncəvi adına Mərkəzi kitabxanasında Salyan Dövlət Kukla Teatrının baş rejissoru, Respublikanın Əməkdar artisti, Prezident mükafatçısı Rafiq Mirzənin rejissor və aktyorluq fəaliyyəti ilə bağlı tədbir keçirilmişdir. Öncə Rafiq Mirzənin yaradıcılığı ilə bağlı video-çarx nümayiş etdirilmişdir.

Giriş sözü ilə çıxış edən MİHİ rayon komitəsinin sədri Vəfa Əbilova Rafiq Mirzəni Respublikanın Əməkdar artisti fəxri adına və Prezident mükafatına layiq görülmüsi münasibətilə təbrik etmişdir.

Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov Rafiq Mirzənin həm aktyor, həm də rejissor kimi yaradıcılığı barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Çıxış edənlər, rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyev, Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsinin Salyan rayonu üzrə nümayəndəsi Günaydın Əhədova, Salyan Dövlət Kukla Teatrının direktoru, Respublikanın Əməkdar Mədəniyyət işçisi Yavər Cəbrayılov, Sarvan kənd mədəniyyət evinin direktoru, Respublikanın Əməkdar Mədəniyyət işçisi Cahangir Qaraşov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Salyan rayon şöbəsinin sədri Arif Əsgərov, Silahlı Qüvvələr, Müharibə və Əmək Veteranları Şurası Salyan rayon təşkilatının sədri Vilayət Əsgərov, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkar İttifaqı Salyan rayon Komitəsinin sədri Hüseyn Ağayev, şair-jurnalist Əzizağa Məmmədli, veteran mədəniyyət işçisi Əlizadə Əliyev, Hacı Mirəşrəf Mirzəyev və başqaları ulu, qədim Salyan rayonunun təkcə Azərbaycana deyil, bütün dünyaya böyük mədəniyyət və incəsənət xadimləri bəxş etdiyini vurğulamış, Rafiq Mirzəni istedadlı rejissor və aktyor kimi səciyyələndirmiş, onun səmimi, təvazökar insan, gözəl ailə başçısı olduğunu bildirmişlər.

MİHİ Salyan rayon Komitəsinin sədri Vəfa Əbilova Rafiq Mirzəyə pul mükafatı təqdim etmişdir.

Qızı-Mirxədicə Mirzəyeva atasının yaradıcılığına göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirmişdir.

Şəhidlər diyarının əbədi sakini

Bu gəlimli-gedimli, son ucu ölümlü dünyada hər kəs bir cür dünyasını dəyişir. Kimisi qəzaya düşərək, kimisi sağalmaz xəstəliyə düçar olaraq, kimisi də öz əcəli ilə bu dünyaya əlvida deyərək son mənzilə yola düşür. Bir dünyadan köçməklik də vardır ki, bu, indi sadaladığımız ölümlərdən ölçüyəgəlməz, müqayisə olunmayacaq dərəcədə fərqlənir. Bunun adı şəhidlikdir. Əslində "şəhidlər ölmür" həqiqətinə söykənərək belələrinə biz öldü demirik. Ölümsüzlük zirvəsinə yüksəldi., ən ali məqama yetişdi, Allaha ən yaxın mərtəbədə qərar tutdu. Əbədiyaşar statusuna yiyələndi,- deyirik. Torpaqdan keçməyənlər, vətənsiz yaşamağı mümkünsüz hesab edənlər şəhidlər diyarının əbədi sakinləridir. Belə sakinlərdən biri, Böyükkişi Həsənağa oğlu Babayev 1956-cı il iyulun 24-də Salyanda şəhərində dünyaya göz açmışdı. Şəhər 4 saylı orta məktəbi bitirdikdən sonra Əli Bayramlı (indiki Şirvan) şəhər texniki peşə məktəbində sürücülük peşəsinə yiyələnmişdi. Salyan taksi-parkında on ilə yaxın sürücü işləmişdi. 1992-ci il aprelin 11-də könüllü olaraq torpaqlarımıza kəc nəzərlərlə baxan düşmənin layiqli cavabını vermək üçün cəbhəyə yola düşmüşdü.

Böyükkişi gilin dəstəsi Xocavənd rayonunun Əmralılar, Muğanlı, Kuropatkino kəndlərinin müdafiəsində dayanmışdı. Düşmən dəfələrlə bu kəndlərə basqın edib işğal etmək istəsə də, bölmə komandiri Böyükkişi və onun silahdaşları işğalçıların hücumlarının qarşısını mərdliklə, igidliklə almışdılar. Onu da qeyd edək ki, bu kəndlərin müdafiəsində dayananların əksəriyyəti salyanlılar idi. Bu döyüşlərdə Böyükkişi qorxmazlığı, cəsarəti, çevikliyi ilə seçilirdi. Ona görə də silahdaşlarının ona inamı çox böyük idi.

1992-ci il avqustun 14-ü idi. Hiyləgər, xain düşmən top, qrad qurğularından Muğanlı kəndini üç istiqamətdən atəşə tutmuşdu. Döyüşün qızğın vaxtında Böyükkişi silahdaşı Arzunun qan içində çabaladığını gördü. Cəsur həmyerlimiz özünü ona yetirməyə tələsdi. Bu məqamda atılan top mərmisi qorxmaz həmvətənimizin qarın nahiyəsini tutdu. İgid eloğlumuz 36 yaşında uğrunda döyüşdüyü, canını belə hər an qurban verməyə hazır olduğu vətən torpağına qovuşdu. Yaşasaydı, 62 yaşı tamam olacaqdı Böyükkişinin. Ruhun şad olsun, əziz həmvətənimiz.

"Qələbə" qəzetinə 2018-ci ilin ikinci yarım ili üçün abunə kampaniyası davam edir

Hörmətli oxucular!

Salyan Rayon İcra Hakimiyyəti və redaksiya kollektivinin təsisçiliyi ilə nəşr olunan "Qələbə" qəzetinə 2018-ci ilin ikinci yarım ili üçün abunə yazılışı davam edir. İlboyu dövlət bayramları, əlamətdar günlər, həmçinin rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən yeniliklər barədə müxtəlif janrlı yazılarla yaxından tanış olmaq istəyirsinizsə, abunə yazılışında iştirak etməyi unutmayın.

Qəzetin 6 aylıq abunə qiyməti 20 manatdır

Qəzetimizə abunə pulu hesaba köçürməklə və ya redaksiyada nağd ödəməklə mümkündür.

Əlaqə telefonları: (021) 255-23-68; 255-29-26.

İşəgötürənlərin nəzərinə!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin 30.03.2018-ci il tarixli 1820012940 saylı əmri ilə işəgötürənlərə hüquqi yardım mərkəzlərinin yaradılması təsdiq olunmuşdur.

Bununla əlaqədar olaraq qeyri -rəsmi məşğulluğun aradan qaldırılması məqsədilə işəgötürənlərə hüquqi maarifləndirmənin həyata keçirilməsi məqsədilə 11 saylı region üzrə Dövlət Əmək Müfəttişliyinə hər həftənin iş günləri səhər saat 9:00-dae 18:00-dək müraciət edə və ya (021) 255-51-66 telefon nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

11 saylı region üzrə Dövlət Əmək Müfəttişliyi.

TIENS

İş elanı

Sağlamlıq, gözəllik, uzunömürlülük aləminə bələdçi

Şirkətə ofisdaxili menecer, satış məsləhətçisi, kadr mütəxəssisi vakansiyaları təklif olunur. zünə inamlı, səmimi, bacarıqlı, təşkilatçılıq qabiliyyəti olan xanım və bəylər dəvət olunur. Yaş həddi mühüm rol oynamır. Təqaüddə olan müəllimlər, dövlət qulluqçuları, zabitlər müraciət edə bilərlər. Əmək haqqı artandır.

Ətraflı məlumat almaq üçün aşağıdakı telefonlara müraciət etmək olar: (050) 320-83-66

Vergi ödəyicilərinin nəzərinə

Ödənilmiş vergi məbləğləri ilə təqdim edilmiş bəyannamələr arasında olan fərqlər haqqında

Hörmətli vergi ödəyicisi!

Bildiririk ki, uçot məlumat bazasına əsasən vergi ödəyicilərinin vergilər üzrə yaranmış artıq ödəmə məbləğlərinin səbəblərinin müəyyən edilməsi üçün onların yaranma mənbələri üzrə təhlillər aparılmışdır.

Təhlillər zamanı Sizin şəxsi hesab vərəqənizdə ödədiyiniz vergi məbləğləri ilə təqdim etdiyiniz vergi bəyannamələri arasında fərqin olduğu müəyyən edilmişdir. Bu da öz növbəsində sonrakı dövrlər üzrə dövlət büdcəsinə yaranan vergi öhdəliklərinin yerinə yetirilməsinə öz təsirini göstərir. Bu isə artıq ödəmələrin yaranma səbəblərinin araşdırılmasını və real olmayan səbəblərin aradan qaldırılmasını zəruri edir.

Nəzərinizə çatdırırıq ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 38.3.5-ci maddəsinə əsasən vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında gəlirlərinizin və ya vergitutma obyektinizin gizlədilməsi (azaldılması) əlamətləri müəyyən edildikdə növbədənkənar səyyar vergi yoxlaması keçirilə bilər və ya Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 83-cü maddəsinə uyğun olaraq əlaqəli məlumatlara əsasən vergi hesablana bilər.

Eyni zamanda bildiririk ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 58.1-ci maddəsinə əsasən verginin hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmasına görə vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi, ödəmələr üzrə yaranmış artıq ödəmələrlə bağlı uyğunsuzluqların aradan qaldırılması, hesablamaların düzgün aparılması məqsədilə müvafiq izahatların və dəqiqləşdirilmiş bəyannamələrin təqdim edilməsi Sizə tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin 195-1 nömrəli Çağrı Mərkəzinə (iş günləri saat 9:00-dan 18:00-dək), 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinə və ya Sizə yaxın olan istənilən Vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət edə bilərsiniz.

BİLDİRİŞ

"Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"nin yeni redaksiyada təsdiq edilməsi haqqında

Hörmətli vergi ödəyicisi!

5 saylı Ərazi Vergilər İdarəsi bildirir ki, "Bəyannamə, hesabat və onların əlavələrinin, ərizə formalarının, arayışların və onların tərtib edilmə qaydaları yeni redaksiyada təsdiq edilmişdir.

"Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi" üzrə

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun qurumları tərəfindən digər işəgötürənlərin işçilərinə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlərin bəyannamədə əks etdirilməsi məqsədi ilə "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"nin "Muzdlu işlə əlaqədar Hesablamalar" və "Hesabat dövrünün 1-ci, 2-ci və 3-cü ayı üzrə hesablamalar" bölmələrinə "AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nun qurumları tərəfindən digər işəgötürənlərin işçilərinə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər üzrə hesablamalar" adlı 901-1-ci, 901.4-1-ci, 901.5-1-ci və 901.6-1-ci sətirlər əlavə edilmişdir.

Eyni zamanda, həmin bəyannamənin "Azərbaycan Respublikası hüdudlarından kənarda muzdlu işlə əlaqədar hesablamalar" adlı 901.1-ci, 901.4.1-ci, 901.5.1-ci və 901.6.1-ci sətirlərinə "o cümlədən, rəsmi bəyan edilməklə (yəni rezidentliklə bağlı bəyannamə təqdim edilməklə) hesablamalar" adlı 901.1.1-ci, 901.4.1.1-ci, 901.5.1.1-ci və 901.6.1.1-ci altsətirlər əlavə edilmiş və bu dəyişikliklər həmin bəyannamənin tərtib edilməsi qaydasında öz əksini tapmışdır.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

5 saylı Ərazi Vergilər İdarəsi.

Minnətdarlıq

Biz şəhid ailəsiyik. Qardaşım Rəhman Xudaverdiyev Qarabağ uğrunda gedən savaşlarda şəhid olub. Qardaşım Əbülfəzi rayonda tanımayan az tapılar. Bu yaxınlarda onun səhhətində problem yarandı. Həkimlər təcili əməliyyat aparılmasının gərəkliyini söylədilər. Tanınmış həkimlər İbrahim Cəfərov, İlqar Ağabəyov, Hilal Məlikov, Əkrəm Cəfərov Aytəkin Əbilova onun sağalması üçün əllərindən gələni əsirgəmədilər. Uğurlu əməliyyat keçdi.

İndi qardaşım normal həyata dönüb. Müayinə və müalicəsi çox yaxşı nəticələnib. Buna görə həkimlərə, bütün tibb heyətinə öz minnətdarlığımı bildirirəm. Geniş qəlbiniz, şəfalı əlləriniz var olsun,-deyirəm.

Ədibə Xudaverdiyeva,
Şəhid bacısı.

ETİBARSIZDIR

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 13 saylı Ərazi idarəsi tərəfindən Salyan rayonu Xalac kənd sakini Bəylərov Sərvər İdris oğlunun adına 1999-cu ildə (reyestr nömrəsi-809013016261) verilmiş torpağın Çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Salyan rayonu Kürqaraqaşlı inzibati ərazi dairəsinə məxsus 7000090851 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran bölgə şöbəsi rətəfindən "Günəşli" kəndli (fermer) Məhdud Məsuliyyətli Cəmiyyətin təisiçisi mərhum Səmədov Habil Əlihüseyn oğlunun adına verilmiş 13 noyabr 2001-ci il tarixli Nizamnamə itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 30 iyul 1998-ci il tarixli 09 saylı qərarı ilə Salyan rayonu Noxudlu kənd sakini mərhum Səlimov İsmayıl Astan oğlunun və ailə üzvlərinin adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-186, kod-80903005) itdiyi üçün etibarsız sayılır.

Neftçala rayon Aqrar İslahat Komissiyasının 10 oktyabr 1997-ci il tarixli 23 saylı qərarı ilə Neftçala rayonu Aşağı Surra kənd sakini mərhum Əliyev Feyruz Novruz oğlunun adına verilmiş Torpağın Mülkiyyətə Verilməsinə dair Şəhadətnamə (JN-108A, kod-80700038) itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin

Zöhrə Tahirova və Salyan Regional Aqrar Elm İnformasiya Məsləhət Mərkəzinin elmi əməkdaşları Əlikram Camalova, qardaşı, Azərbaycan Müdafiə Sənayesi naziri

YAVƏR CAMALOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor: R.S.Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 560 Sifariş: 19-20
Qəzet redaksiyanın kompüter ərəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143 VÖEN:7000080071

Məsul növbətçi: L.H.Nəsirova